

# Göstərir Bakı!

## Şərqin ilk televiziya məkanı

*Günel ABBASOVA*

"Diqqət-diqqət, göstərir Bakı" - 1956-cı il fevralın 14-də Azərbaycanın ilk televiziyası bu sözlərlə yayıma başlayıb. Həmin tarix xalqımızın siyasi və mədəni həyatına böyük yenilik gətirib. Ötən 67 il ərzində Azərbaycanda televiziya yayım şəbəkəsi qurulub, ən müasir standartlara əsaslanan rəqəmli televiziya yayım vericiləri istismara verilib. 1996-cı ildə istismara verilən Bakı Teleqüllə Kompleksi bu gün ölkənin əsas yayım mərkəzi hesab olunur. 310 metr hündürlüyü olan və unikal konstruksiyaya malik bu kompleks vasitəsilə yerli və bir çox xarici ölkələrin televiziya proqramları yayımlanır.



Professor, tanınmış televiziya aparıcısı və media mütəxəssisi Qulu Məhərrəmli "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, televiziya yayıma başlayarkən ilk veriliş üç hissədən ibarət olmuşdu: "Nəcibə Məlikovanın apardığı verilişdə ölkənin o zaman tanınmış adamları çıxış ediblər. Mehdi Hüseyn və Süleyman Rüstəm yazıçılar birliyi adından, Mədəniyyət xadimləri adından televiziyanın sədri Teymur Əliyev çıxış etmişdi. Həmin verilişə Səməd Vurğun da dəvət olunur, ancaq xəstə olduğu üçün gələ bilmir. Bu söhbətdən sonra televiziyanın rolu və gələcək perspektivləri barədə danışılır. İkinci hissədə təxminən yarım saatlıq konsert proqramı təşkil olunur. Üçüncü hissədə isə "Bəxtiyar" filmi göstərilir. Ancaq bir gün əvvəl studiyada yanğın baş verdiyindən film efirə səssiz gedir. Ertəsi gün Hökümə Qurbanovanın təqdimatı ilə "Bəxtiyar" filmi efirə yenidən gedir. İlk dəfə verilişlər günaşırı yayımlanırdı. Cizgi filmləri, konsert proqramları yayımlanırdı. İyun ayından başlayaraq tədricən verilişlərin tematikası genişlənməyə başlayır. 1960-cı illərdən günaşırı xəbərlər efirə verilir. Bir müddətdən sonra daimi xəbərlər proqramı efirə çıxır. Tədricən futbolla bağlı verilişlər və digər sahələri əhatə edən proqramlar hazırlanır. Bu illərin ən önəmli cəhəti idi ki, mərkəzi televiziyada Azərbaycan günləri keçirilirdi".

Q.Məhərrəmli qeyd edib ki, müstəqillik dövründə televiziya xeyli inkişaf edərək, birkanallı televiziyadan çoxkanallı televiziya şəbəkəsinə çevrilib: "Hazırda





Azərbaycanda televiziya yayımı haqqında qanun var. Bu sahədə dövlət yayımını tənzimləyən Audiovizual Şura var. Ən mühüm məsələlərdən biri 2005 - ci ildə ictimai televiziya yayıma başlayıb. Bu gün tamaşaçıları qane etməyən cəhətlər olsa da, televiziya sahəsində çoxsaylı uğurlarımız var. Televiziya xalqın adət-ənənələrinin, Azərbaycan dilinin ən fəal təbliğatçısına çevrilib. Bu prosesin iştirakçıları kimi televiziya işçilərini təbrik edirik".